**UOT 008.**
**https://doi.org/10.52094/2221-7584.2025.37.23**

**Nərminə Hüseynova Ağarza qızı**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti magistrant**
**narmina.huseynova987@gmail.com**
**https://orcid.org/0000-0001-8673-4221**

# QURD SİMVOLİZMİ VƏ QAQAUZLARIN MƏDƏNİYYƏTİNDƏKİ ROLU

**Xülasə:** Bu məqalə, qədim dövrlərdən bəri türk xalqlarının mədəniyyətində, xüsusən Qaqauzlar arasında qurd simvolunun əhəmiyyətini araşdırır. Qurd, türk xalqlarının mifologiyasında, inanc və ənənələrində güc, azadlıq, müstəqillik və qoruyuculuq rəmzi kimi qəbul edilmişdir. Qaqauzlar arasında, qurd həm mənəvi, həm də sosial baxımdan xüsusi əhəmiyyət daşıyır. Məsələn, qurdun adı çəkildikdə, canavarın yaxınlaşacağına inanılır və bu səbəbdən “qurd” sözü əvəzinə “qərib” sözü istifadə olunur.

Qaqauzlar arasında ən məşhur bayramlardan biri “Qurd bayramı”dır, bu bayramda qurdun şərəfinə xüsusi mərasimlər keçirilir. Qurd simvolu, həmçinin qoruyuculuq və təhlükəsizliyi təmin etmək məqsədilə mal-qaranı yırtıcılardan qorumağa yönəlmişdir. Qaqauzlar arasında qurdla əlaqədar başqa bir inanc da vardır ki, yalan söyləyən şəxslər qurdla and içərək cəzalandırılmalıdırlar.Məqalə həmçinin göstərir ki, türk xalqlarının mifologiyasında qurd, xüsusilə Orxon abidələrində, cəsarət və güc simvolu olaraq önə çıxmışdır. Qurd, qədim Türklərdə “bozqurd” olaraq adlandırılmış və bu simvol bir çox müsbət keyfiyyətləri özündə cəmləşdirmişdir. Qurd həmçinin, türk dastanlarında, məsələn, “Ergenekon” dastanında da mühüm bir obrazdır.

Bundan əlavə, Qaqauzların bayrağında da qurd simvolu yer almışdır. Bayrağın üzərindəki qurd başı, xalqın mifik əcdadını və mübarizə ruhunu simvollaşdırır.

Ümumilikdə, məqalə qurdun türk xalqlarının mifologiyasındakı yerini və onun Qaqauz mədəniyyətindəki xüsusi rolunu vurğulayan dərin bir təhlil təqdim edir.

**Açar sözlər:** qurd, qaqauzlar, türk xalqları, mifologiya, mədəniyyət, bayramlar, şamanizm

**Giriş:**

Qədim dövrlərdən bəri insanlar, təbiətə və onun güclü elementlərinə olan inanclarını müxtəlif simvollar və mifik obrazlarla ifadə etmişlər. Bu simvollardan biri də qurd olmuşdur. Qurd, dünyanın bir çox xalqının mifologiyasında, dinində və ənənələrində əhəmiyyətli bir yer tutmuş, xüsusilə türk xalqlarının mədəniyyətində güc, azadlıq və müstəqillik rəmzi olaraq qəbul edilmişdir.

Türk xalqlarının tarixində, xüsusilə Qaqauzlar arasında qurdun yeri xüsusi diqqətə layiqdir. Onlar, qurdun həm müsbət, həm də qoruyucu bir təsirə sahib olduğuna inanaraq, müxtəlif bayramlar və mərasimlər vasitəsilə qurd kultunu yaşatmışlar. Qaqauzların təqvimində, qurd simvolizmi, yalnız təbiət və ətraf mühitə olan əlaqələrini deyil, həm də millətin ruhunu və birliyini ifadə edən bir element olaraq qarşımıza çıxır. Bu məqalədə, qurdun Qaqauzlar arasında, həm dini, həm də mədəni ənənələrdəki yerini, eləcə də bu inancın digər türk xalqları ilə olan paralellərini araşdıracağıq.

Dünya xalqlarının miflərindən, dastanlarından və əfsanələrindən görmək olar ki, qədim insanlar yırtıcı heyvanların gücünə və qüdrətinə pərəstiş etmişlər. Bu heyvanlardan biri də qurdur. O, azadlıqsevər, ağır şərtlərə dözən və müstəqilliyini qoruyan bir heyvandır.

Avrasiyanın türk xalqları arasında Qaqauz mədəniyyəti, xristianlıq və şamanizm kimi dini inancları birləşdirir. Bu xalqlar əsrlər boyu qarşılaşdıqları çətinliklərə baxmayaraq, mədəniyyət və dini ənənələrini qorumağa müvəffəq olmuşlar. Onlar öz milli kimliklərini və mədəni irslərini qoruyub saxlamağa çalışaraq, əcdadlarının inanc və dəyərlərini gələcək nəsillərə ötürmək məqsədi güdürlər.

Qaqauz türklərinin inanc və ənənələrində ən güclü canlı ünsür qurddur. Qədim dövrlərdən qurd kultu, qaqauzların təqvim rituallarının etnik xüsusiyyətlərini əks etdirən, günümüzə qədər gəlib çatmış ən diqqət çəkən elementlərdən biridir. Burada diqqət çəkən bir məqam var ki, müqəddəs sayılan qurd həmişə müsbət simvoldur (Yoloğlu, 1996, səh.11). Hər hansı bir yerdə qurdla rastlaşmaq həmişə yaxşı əlamət kimi hesab olunur. Ancaq qurddan fərqli olaraq dovşan, pis əlamət kimi qəbul edilir. Qaqauzlarda qurda rast gəlmək uğur, dovşanı görmək isə uğursuzluq kimi qəbul edilir (Refik, 1992 səh.184). Onlar “Qurd” sözünün əvəzinə daha çox “canavar” sözündən istifadə edirlər. Belə adlandırılmasının səbəbi “qurd” adına qarşı bir tabunun olmasıdır. Qurdun

adı çəkilərsə, canavarın onlara hücum edə biləcəyi düşünülür (Квилинкова, 2014 səh.159).

Qaqauzlar arasında “qurd ağzı bağlama” inancı, Türk dünyası və Anadolunun bəzi yerlərində bu gün də davam edən bir adətdir. Bu mərasimdə, bıçağın iti tərəfi bağlanır və xüsusi dua səsləri ilə tamamlanır. Qaqauz qadınları, sobanın ağzını örtməklə canavarın gözlərini və ağzını bağlamış olurla (Refik, 1992 səh.200).

Bu inancın meydana gəlməsi alimlər tərəfindən əsasən xalqların maldarlıqla daha çox məşğul olduğu dövrə bağlanır. Eyni zamanda, həmin dövrə aid olan bir ənənə də mövcuddur ki, bu, Qaqauzlar arasında qurdun adı ilə and içmək və təhqir etmə adətidir. Yalan and içənə qurd cəzası verilirdi. XX əsrin 60-cı illərində qaqauzlar arasında “qurd adı ilə and içmək” adəti mövcud idi: “canavar ırsun! ” yəni “Əgər yalan deyirəmsə, məni qurd cəzalandırsın! ” (Губоглу, 1969, səh.100).

Qaqauzlar canavarın şərəfinə hər il xüsusi günlər qeyd edir. Onlardan ən məhşuru, nə xristian bayramlarının qeyd olunması, nə də xristian müqəddəslərinə ehtiramı ilə heç bir əlaqəsi olmayan payızda keçirilən “Qurd bayramları”dır. “Canavar Yortuları” adlanan bu bayram, qaqauzların xristianlığı qəbul etməsindən əvvəlki dövrlərdən qorunub saxlanılmışdır. Keçmişdə qaqauzlar canavarları totem hesab etmişlər və ona böyük dəyər verirdilər. Onlar uzun illər maldarlıqla dolandıqları üçün bu bayram günümüzə qədər əhəmiyyətini saxlayır. Yaşamaq üçün heyvandarlıqla məşğul olan qaqauzlar onların sağlamlığına böyük əhəmiyyət verirlər.

Yelizaveta Kvilinkova “Волчьи праздники в Гагаузии” məqaləsində qeyd edir ki, bayram öncəsi “qurd” sözü işlədilməməlidir, əksinə “qərib” sözü ilə əvəz edilir. Bu, qorxu və diqqət yetirmə ilə bağlıdır, çünki “qurd” adı çəkildikdə, canavarın yaxınlaşacağına inanılır. Qaqauzlar, Milad orucunun başlanmasından bir həftə sonra (21 noyabr/4 dekabr) Topal Qurd Gününü qeyd edirlər. Rəvayətə görə, Topal Qurd ən təhlükəli canavar sayılır və ona görə də bu gün xüsusi olaraq qeyd edilir (Квилинкова, 2014, səh.158).

Qurd bayramlarının keçirilməsində məqsəd, xalqı və mal-qaranı yırtıcılardan qorumaqdır. Bu bayramlar həmçinin Balkan-Dunay bölgəsinin digər xalqlarının mərasimləri ilə oxşardır. 30 Noyabr - Topal Yırtıcı Günü və ya Qurd Günü kimi qeyd edilir (Бонаева, 1994 səh.14).

Təsvir edilən adətlər və inanclar göstərir ki, qaqauzların əcdadları üçün qurd, mənşəyi ilahi olan bir varlıq kimi qəbul edilirdi. Onlar inanırdılar ki, bu varlığın əlində, öz tayfa yoldaşları arasında nizam və ədaləti qorumaq üçün

görünməyən mexanizmlər var. Xalq inanclarında qurd simvolu müsbət bir başlanğıcı təmsil edirdi və xoş əlamətlərin rəmzi sayılırdı. (Мошков, 1901 səh.65).

Qədim Rumınlar da inanırdılar ki, qış noyabrın sonunda gəlir və bu gün xüsusilə ehtiyatlı olmaq lazımdır, çünki canavarlar cəsarətlənib mal-qaraya hücum edirlər. Belə bayramları qurd kultunun qalıqları adlandırmaq olar (Квилинкова, 2014 səh.123).

Qurd bayramları - bolqar xalq mifologiyasında canavarların şərəfinə hörmət edilən 3, 5, 7, 9 və ya 10 gün (regiondan asılı olaraq) müddətdir. Təqvim baxımından bu dövr ən çox payız-qış bayramı - Arxangel Mixael günü ilə əlaqələndirilir, lakin Bolqarıstanın cənubunda Milad bayramında, digər yerlərdə (Medven, Sredets, Vresovo və s.) Trifonov Günündə qeyd olunur. Xalq təqviminə görə dekabrın 28-i Trifon günü, pravoslav təqviminə görə isə Peçenqa Müqəddəs Trifon günüdür. Müqəddəs Trifon dənizçilərin himayədarı sayılırdı (Бонаева, 1994, səh.29)

Qərbi Bolqarıstanda qurd bayramı Kudelitsa günü (11-16 noyabr və ya 21 noyabr) kimi tanınır. Orta Rodop dağlarında 1920-30-cu illərə qədər hər ayın ilk günü “zavalka” ( canavar üçün) qeyd edirdilər (Бисенбаев, 2007, səh.29).

Qurda münasibət ikili statusa malikdir. Bir tərəfdən o, “müqəddəs” sayılır və kökün, nəslin başlanğıcı onunla əlaqələndirilir. Digər tərəfdən isə, yırtıcı quduz canavar kimi zərərli olduğu söylənilir (Yetişti, 2022, səh.660)

Azərbaycanda igid, cəsur insanlar haqqında belə deyirlər: “qurd ürəyi yeyib”, “qurd oğlu” və s. Qurdun, “Kitabi Dədə Qorqud” dastanında, onun qəhrəmanlarının həyatında böyük əhəmiyyəti olduğu vurğulanır. Dastanda qurd, yalnız Qazan xanla bağlı deyil. “Baybörə” adını qeyd etmək olar ki, bu ad bay və börə sözlərindən əmələ gəlib. Börə “Kitabi-Dədə Qorqud”da qurd mənasını verir. Digər türk xalqları ilə müqayisə etdikdə görərik ki, qurd sözü Xakaslarda “püür”, baraba türklərində “pöri”, tıvalılar “börü”, tatarlarda “büre”, kimi səslənir. “Bay” sözü isə “hörmətli”, “bəy”, “varlı” mənasında işlənir. İndiki vaxtda bir çox türklərdə “börü” sözü unudulub, əvəzinə “kurt”, “qurd” sözü geniş yayılmışdır. Türk dünyasında bəzi xalqlarda başqa sözlər də yaranmışdır. Yakut türkləri qurdu “kuturuktaax (quyruqlu)”, “köktay (göy əmi)” kimi adlandırırlar; Tuva türkləri qurdu “uzun kudruk (uzunquyruqlu)”, “kök karak (yaşıl gözlü)”, “çeler ang (qaçan heyvan)”, Xakas türkləri qurdu “xatığmoyin” (sərt), “çagıağayi (yazı, kənd iti)” adlandırırlar (Yoloğlu, 2000, səh.4).

Qurd türk xalqlarının mifologiyasında, ayinlərində və şəcərə əfsanələrində türk-monqol, hind-iran, hind-avropa xalqlarının və Şimali Amerika hindlilərinin ən mühüm heyvan simvollarından biridir. Müxtəlif xalqlar arasında qurd simvolu kişiləri əks etdirir, hunlarda və göytürklərdə isə qurd soyundan gəlmə əfsanəsi əsasında qurd qadını təmsil edir (Roux, 1997 səh.68).

Qurdun türk dastanlarında xüsusi bir yeri vardır. Qurd çevikliyi, cəsarəti, hücumu, yırtıcılığı, qüvvəti bildirən bir rəmz idi. Tarix boyunca düşmənlər türk əsgərlərini qurdlara bənzətmişlər. Bu bənzətməni özləri üçün türklər də işlədirdilər. Orxon abidələrindəki bir cümlə də bunu göstərir: "Tanrı güc verdiyi üçün atam Xaqanın əsgərləri qurd kimi, düşmən əsgəri qoyun kimi imiş...". Bu cümlə türklərin qurdu təqdir etdiklərini, savaşda ona bənzəməklə öyündüklərini, amma əsl gücü Tanrıdan aldıqlarını da anladır (Özyurt Ulutaş, 2018, səh.11).

Qədim Türklər qurdu "bozqurd" adlandırırdılar. Bunun səbəbi isə boz rəngin ilahi məna daşımasıdır. Qurd simvolu bir çox müsbət keyfiyyətləri özündə cəmləşdirir. O, türklərdə qorxmazlıq və cəsarət, ədalət və qürur simvoludur. İstənilən döyüşdə qurd qələbəyə və ya ölümə qədər vuruşur. O, ölmüş heyvanın cəsədini heç vaxt yeməz, deməli həm də paklıq rəmzidir. "Bozqurd"un bütün bu xüsusiyyətləri müxtəlif əfsanələrdə öz əksini tapmışdır (Babayev, 2016, səh.98).

Bir çox xalqların mifoloji təsəvvürlərində canavar obrazı var. Bir çox mifologiyada tayfanın əcdadının, bəzən isə onun əkizinin dişi canavar tərəfindən tərbiyəsi süjeti ortaqdır. Məsələn, Romulus və Remusu əmizdirən Kapitolin dişi canavar haqqında Roma əfsanəsi (Babayev, 2016, səh.100). Kiri əmizdirən dişi canavar haqqında qədim İran əfsanəsi. VII əsr Çin salnaməsində türklərin bir oğlan istisna olmaqla düşmənlər tərəfindən məhv edilmiş əcdadları haqqında əfsanəsi mövcuddur. Oğlan bir dişi canavar tərəfindən əmizdirilir, sonradan onunla evlənmiş və ona on oğul dünyaya gətirmişdir. "Ergenekon" dastanında Göy türklər tatarlar tərəfindən məğlub edilir və El Kağanın oğulları Qiyan və Nüküzdən başqa hamı həlak olur. Düşmənlərdən qaçan qardaşlar dağlarda, başqa qəbilələrdən uzaqda yaşamağa qərar verirlər. Yolda, onları dağların arasından düzənliyə aparan dişi maralla rastlaşırlar. Ərazini araşdırandan sonra Qiyan və Nüküz əmin olurlar ki, burada gəldikləri yoldan başqası yoxdur. Dörd yüz il keçir və bu illər ərzində Göy Türkün nəslinin sayı artır. Onlar özlərini əlçatmaz dağlarla əhatə olunmuş düzənlikdə dar hiss edirlər. Və daha dağlarda gizlənməmək və doğma yerlərinə qayıtmaq qərarına

gəlirlər. Onlar uzun müddət dağların ətrafında gəzərək yol axtarırdılar, ta ki, göy yallı canavar köməyə gələnə qədər (Refik, 1992, səh.180).

Güllü Yoloğlu "Qaqauzlar" kitabında qeyd edir ki, "1990-cı ildə iyulun 22-də qaqauz xalqının səlahiyyətli nümayəndələrinin fövqəladə qurultayında 3-cü iclası Komrat şəhərində keçirilmişdi. Qurultayda gələcək respublikanın bayrağı, gerbi və himni müzakirə olunmuşdu. Bayraq haqqındakı arayışda qeyd edilir ki, Dobruca qocalarından birinin dediyinə görə, qaqauz xalqının öz bayrağı olub. Kənarlarında qızılı xoruzlar, üzərində qurd başının şəkli olan mavi bayraq göy oğuzları döyüşə ruhlandırmışdır. SSRİ dövründə qaqauzların bayrağı qadağan olunmuşdu, qaqauzlar hətta SSRİ bayrağı altında milli etiraz mitinqlər keçirirdi. 1990-cı illərin əvvəllərində Qaqauziya Respublikasında qurd başı təsvirli mavi bayraq istifadə olunurdu. Bu qeyri-rəsmi bayraq idi. Bayrağın ortasındakı bədirlənmiş ayın rəmzi olan ağ rəngli dairənin içərisində mavi-boz rəngli qurd şəkli vardır. Burada mavi - türklərin ənənəvi rəngidir və ümidi, xeyirxahlığı, vətənə və ailəyə sədaqəti ifadə edir, qurd isə xalqın mifik əcdadıdır" (Yoloğlu, 1996, səh.16).

Hal-hazırda qaqauzların bayrağında qurd təsviri olmasa belə xalqın yaddaşında qurd obrazı bu, türksoylu xalqın mübariz olmasının, əbədi mövcudluğunun rəmzidir.

Qurd, türk xalqlarının mifologiyasında və şəcərə əfsanələrində çox mühüm bir yerə sahibdir. O, həm kişi, həm də qadın simvolu olaraq çoxsaylı xalqların təmsil etdiyi varlıqdır. Türk dünyasında, qurd həm cəsarət, həm də ədalət rəmzi kimi tanınır.

## Ədəbiyyat siyahısı:
## Azərbaycan dilində

1. Babayev, E. (2016) Qədim türklərin inanc sistemində bozqurd motivi // Azərbaycan Dövlət və Din. - № 05 (46) sentyabr – oktyabr.
2. Yoloğlu, G. (2000) Əzvay qurd ənügi erkəgində bir köküm var // Dövran. – №22, 13-19 iyun. – s.4
3. Yoloğlu G. (1996) Qaqauzlar. – Bakı, "Azərnəşr", 48 s.
4. Refik, Ö. (1992) Türkün qızıl kitabı / – Bakı: Yazıçı, 424 s. Selcen Özyurt Ulutaş Gagauz dili, tarihi, coğrafyası ve inanç sistemleri. – Türk Ocakları Bursa Şubesi,
5. Yetişti O. (2022) Gagauzlarda Kurt (Canavar) Kültü'nün İzleri. - Türk Bilimde Arayışlar: Timur Kocaoğlu Armağanı 2.Kitap, Ed. Ceren Selvi, Kutlu Yayınevi, İstanbul. səh. 655-672.

6. Roux. J. P. (1997) Türk İnancında Tavşan. Yabancı Araştırmacılar Gözüyle Alevilik Aynayı Tuttum Yüzüme Ali Göründü Gözüme. İstanbul: Ant Yayınları.

**Rus dilində**

7. Бисенбаев А.К. (2007) Мифы древних тюрков. – Almatı 136 s.
8. Бонаева Т. (1994) Народен светоглед. // Родопи. Традиционна духовна и соци-ално-нормативна култура. — София: Етнографски Институт с Музей, — С. 29.
9. Губоглу М.П. (1969) Два указа (1801 г.) и «Священный рескрипт» (1802 г.), связанные с турецко-русско-румынскими отношениями // Восточные источники по истории народов Юго-Восточной и Центральной Европы. Т. II. Под. ред. А.С. Тверитиновой, М.,. С. 238-274.
10. Квилинкова Е. Н. (2014) Культ волка у гагаузов сквозь призму этнокультурных символов. – Кишинев,. С. 472, səh.
11. Мошков В.А. (1901) Гагаузы Бендерского уезда. Этнографические очерки и материалы //. № 4. С. 1-80

**Нармина Гусейнова**

## СИМВОЛИЗМ ВОЛКА И ЕГО РОЛЬ В ГАГАУЗСКОЙ КУЛЬТУРЕ

**Резюме:** Эта статья исследует значение символа волка в культуре тюркских народов с древних времен, особенно среди гагаузов. Волк в мифологии, верованиях и традициях тюркских народов воспринимается как символ силы, свободы, независимости и защиты. Среди гагаузов волк имеет как духовное, так и социальное значение. Например, существует поверье, что, когда упоминается имя волка, считается, что услышав свое имя, он может появиться, поэтому вместо слова «волк» используют слово «чужак».

Одним из самых известных праздников у гагаузов является «Праздник волка», во время которого проводятся специальные обряды в честь волка. Символ волка также связан с защитой скота от хищников и обеспечением безопасности. Существует еще одно поверье у гагаузов, связанное с волком: человек, говоривший неправду, должен поклясться волком и понести наказание.

Статья также показывает, что в мифологии тюркских народов, особенно в Орхонских надписях, волк представлен как символ храбрости

и силы. В древности тюрки называли его «Бозкурт», и этот символ объединял в себе множество положительных качеств. Волк также занимает важное место в тюркских эпосах, например, в сказании «Эргенекон». Кроме того, символ волка присутствует и на флаге гагаузов. Голова волка на флаге символизирует мифического предка народа и его дух борьбы. В целом, статья представляет глубокий анализ роли волка в мифологии тюркских народов и его особого места в гагаузской культуре.

***Ключевые слова:*** волк, гагаузы, тюркские народы, мифология, культура, праздники, шаманизм.

**Narmina Huseynova**

## SYMBOLISM OF THE WOLF AND ITS ROLE IN GAGAUZ CULTURE

**Summary:** This article explores the significance of the wolf symbol in the culture of Turkic peoples from ancient times, with a particular focus on the Gagauz. In the mythology, beliefs, and traditions of Turkic peoples, the wolf is perceived as a symbol of strength, freedom, independence, and protection. Among the Gagauz, the wolf holds both spiritual and social significance. For example, there is a belief that if the name of the wolf is mentioned, it may appear; therefore, instead of the word “wolf” they use the word “stranger”.

One of the most well-known festivals among the Gagauz is the “Wolf Festival” during which special rituals are performed in honor of the wolf. The wolf symbol is also associated with protecting livestock from predators and ensuring security. Another belief states that a person who tells a lie must swear by the wolf and face punishment.

The article also highlights that in the mythology of Turkic peoples, the wolf, especially in the Orkhon inscriptions, is depicted as a symbol of courage and strength. In ancient times, the Turks called it “Bozkurt” and this symbol embodied many positive qualities. The wolf also plays an important role in Turkic epics, such as the legend of “Ergenekon”.

Furthermore, the wolf symbol is present on the flag of the Gagauz. The wolf’s head on the flag symbolizes the mythical ancestor of the people and their spirit of struggle.

Overall, the article presents an in-depth analysis of the place of the wolf in Turkic mythology and its special role in Gagauz culture.

***Key words:*** Wolf, Gagauz, Turkic peoples, Mythology, Culture, Festivals, Shamanism.